**2013-cü ildə yaşayış minimumu və ehtiyac meyarının həddi artırılacaq**

2013-cü ildə Azərbaycanda həm yaşayış minimumunun, həm də ehtiyac meyarının həddi artırılacaq. Milli Məclisin sosial siyasət komitəsinin sədri Hadı Rəcəbli bildirmişdir ki, «Azərbaycanda 2013-cü il üçün yaşayış minimumu haqqında» qanun layihəsinə əsasən, gələn il üçün yaşayış minimumu ölkə üzrə 116 manat səviyyəsində nəzərdə tutulub. Növbəti ildə yaşayış minimumu əmək qabiliyyətli əhali üçün 125 manat, pensiyaçılar üçün 94 manat, uşaqlar üçün isə 93 manat səviyyəsində proqnozlaşdırılıb. «2013-cü il üzrə ehtiyac meyarının həddi haqqında» qanun layihəsinə əsasən, gələn ilin əvvəlindən Azərbaycanda ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədi ilə ehtiyac meyarının həddi 93 manat məbləğində müəyyən olunacaq. Beləliklə, gələn ilin əvvəlindən Azərbaycanda ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədi ilə ehtiyac meyarının həddi 10,7% artırılacaq.

Qeyd edək ki, ölkəmizdə yaşayış minimumunun və ehtiyac meyarının həddi bu ilin əvvəlində artırılıb. 2012-ci il üçün yaşayış minimumu ölkə üzrə 108 manat, ehtiyac meyarının həddi isə 84 manat məbləğində müəyyən olunub.

Hadı Rəcəblinin sözlərinə görə, respublikamızda həyata keçirilən sosial siyasətin başlıca istiqamətləri davamlı olaraq ölkəmizin maliyyə imkanlarının artması fonunda bütün sosial kateqoriyaların əməkhaqqı, müavinət və təqaüdlərinin artırılmasından ibarətdir. Bu sosial siyasətin təntənəsi kimi son 8 ildə minimum əməkhaqları, ehtiyac meyarı və yaşayış minimumunun məbləğinin hər il artırılması nəzərə çarpır. Məsələn, 2004-cü ildə 25 manat təşkil edən yaşayış minimumunun həddi gələn il 108 manat olacaq. Bu məbləğin orta həddi 2005-ci ildə 52 manat, 2006-cı ildə 58 manat, 2007-ci ildə 64 manat, 2008-ci ildə 70 manat, 2009-cu ildə 84 manat, 2010-cu ildə 87 manat, 2011-ci ildə 102 manat təşkil edib. Beləliklə, ötən 8 il ərzində ölkə üzrə yaşayış minimumunun məbləği 4,2 dəfə artırılıb.

Son 8 ildə respublikamızda ehtiyac meyarının həddinin də davamlı olaraq artımı baş verib: bu məbləğ 2004-cü ildə 5 manat, 2005-ci ildə 20 manat, 2006-cı ildə 30 manat, 2007-ci ildə 40 manat, 2008-ci ildə 55 manat, 2009-cu ildə 60 manat, 2010-cu ildə 65 manat, 2011-ci ildə 75 manat təşkil edib. 2012-ci ildə bu rəqəm 84 manatdır. Göründüyü kimi, 2004-cü ildən indiyədək ehtiyac meyarının məbləği dəfələrlə artırılıb. Bununla yanaşı, 2004-2011-ci illər ərzində minimum əməkhaqqının məbləği 17 dəfə artırılıb. 2004-cü ilin əvvəllərində bu rəqəm 5,5 manat təşkil etdiyi halda, hazırda 93,5 manata çatdırılıb. Minimum əməkhaqqı, yaşayış minimumu və ehtiyac meyarının məbləğinə görə Azərbaycan MDB-də ən yaxşı göstəricilərə malik ölkələrdən biridir. Respublikamız qeyd olunan sosial göstəricilər üzrə Rusiya və Qazaxıstandan sonra 3-cü sırada yer alır.

Ölkəmizdə həyata keçirilən sosial siyasətin əsas prioritetlərindən biri də bu sahədə inkişaf indikatorlarının Avropa Sosial Xartiyasının tələblərinə çatdırmaqdır. Əsas sosial hədəflər ölkə üzrə ehtiyac meyarını yaşayış minimumuna çatdırmaqdır. Ortamüddətli dövr üçün makroiqtisadi inkişaf proqnozları Azərbaycanın bu sosial meyarlara çatmasına möhkəm zəmin yaratmış olur.

Ümumiyyətlə, insanların daha da yaxşı yaşaması və onların illik gəlirlərinin artmasına dövlət dəstəyinin gücləndirilməsi hökumətin diqqət yetirdiyi əsas prioritetlərdəndir. Respublikamızın maliyyə resurslarının və büdcə gəlirlərinin əsas xərc istiqamətləri vətəndaşların rifah halının yaxşılaşması, aztəminatlı ailələrin lazım olan sosial müdafiə tədbirləri ilə təmin edilməsi, sosial sahədə mövcud olan bütün problemlərin aradan qaldırılması üzrə tədbirlərin gücləndirilməsinə yönəlib. Sosial sistemin təkmilləşdirilməsi məqsədi ilə islahatlar ilbəil sürətlənir və bundan sonrakı illərdə daha da intensiv xarakter alacaq. Atılan addımlar və sosial sahədə ardıcıl şəkildə həyata keçirilən layihələr onu göstərir ki, Azərbaycan hökuməti əhalinin maddi rifah halının yaxşılaşdırılması və onların bütün sosial qayğılarla əhatə olunmaları üçün güclü maliyyə

imkanlarına və islahatları dərinləşdirmək iradəsinə malikdir.




İqtisadi İnkişaf və Maliyyə nazirliklərinin birgə hazırladıqları qarşıdakı 3 ilin sosial-iqtisadi inkişaf proqnozlarına görə, Azərbaycanda yaşayış minimumunun və ehtiyac meyarının həddinin əhəmiyyətli dərəcədə artırılacağı nəzərdə tutulur. Yaşayış minimumunun 2014-cü ildə 138 manata, 2015-cü ildə 146 manatadək artırılması proqnozlaşdırılır. Ehtiyac meyarının həddinin isə 2014-cü ildə 107 manata, 2015-cü ildə 114 manat çatdırılacağı bildirilir. Qeyd olunan ortamüddətli dövr üzrə proqnoz göstəricilərində minimum əməkhaqqının 2013-cü ildə 120,2 manata, 2014-cü ildə 127,7 manata, 2015-ci ildə 140 manata çatdırılacağı planlaşdırılır. Yeri gəlmişkən, sosial müavinətlərin, doktorant və tələbələrin təqaüdlərinin artırılması da proqnozlaşdırılır.




Elbrus CƏFƏRLİ